# Bir ocağın istisi

**Elə işıqlı insanlar var ki, dünyadan köçsələr də, unudulmaz xatirələri ilə könüllərdə yaşayırlar. Görkəmli elm xadimi, təhsil fədaisi, Azərbaycan Respublikasının əməkdar müəllimi, pedaqoji elmlər doktoru Yafəs Rəsul oğlu Baxşəliyev kimi.**



O, Zəngəzur dağlarının məğrur səsi idi. Doğulduğu Qafan rayonunun Keynəşin kəndinin saflığını, mərdliyini, məğrurluğunu, yenilməzliyini, xeyirxahlığını özü ilə Bakıya gətirmişdi.

Yafəs müəllim uzun illər dərs dediyi, kafedra müdiri olduğu Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində öz imzasını, dəstxəttini qoyub getmiş gözəl alim, nadir şəxsiyyətlərdən biri idi. Professor, müəllim heyəti, tələbələr onu bənzərsiz ziyalı, zəngin dünyası olan alim, böyük vətəndaş, Azərbaycan sevdalısı kimi tanıyırdılar. Yafəs müəllim cəbr sahəsi üzrə respublikada ən mükəmməl, unikal dərsliyin müəllifi idi. 5 dərsliyin, 80-dən çox elmi məqalənin müəllifi olan istedadlı alim 2008-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində "İlin alimi" müsabiqəsinin qalibi olmuşdu.

13 ildən artıq rəhbərlik etdiyi "Cəbr və həndəsə" kafedrasının kollektivi Yafəs müəllimi böyük qəlbinə, əyilməzliyinə, xeyirxahlığına görə "məğrur çinar" adlandırırdı. Yafəs müəllim həqiqətən bu dünyaya elə bil yaxşılıq, xeyirxahlıq etmək missiyası ilə gəlmişdi. Və ona başucalığı, hörmət, ehtiram gətirən həm də ləyaqətli ailəsi, istedadlı övladları, ağıllı, zəkalı, duyğulu nəvələri idi.

Yafəs müəllim o dağlar qoynundan gətirdiyi ata ocağının istisini, hərarətini, təmizliyini, müqəddəsliyini əmanət kimi onlara verib getmişdi. Və nə yaxşı ki, məğrur çinarın pöhrələri də ata ocağının istisini, işığını, yaşıllığını qoruyub saxlayır, aydın sabahlara doğru aparırlar. Yafəs müəllimin övladları Rəsul, Nərgiz, Elnur çalışdıqları sahələrdə qazandıqları uğurlarla müstəqil Azərbaycana öz layiqli töhfələrini verməklə yanaşı, fəxr etməli, qürur duymalı övladlar böyüdürlər. Dostlar, tanışlar fəxrlə: "Yafəs müəllimin nəvələridir" - deyə fərəhlənirlər.

Rəsulun böyük oğlu Anar 2009-cu ildə Bakı Oksford məktəbini uğurla bitirdikdən sonra İngiltərədə nüfuzlu Savthempton Universitetində informasiya texnologiyaları sahəsində təhsil almış, vətənə qayıtmışdır. İdmanda böyük uğurlar qazanan Anar tennis üzrə Azərbaycan çempionu, şahmat üzrə ustalığa namizəddir.

Murad da qardaşı kimi orta məktəbi uğurla bitirdikdən sonra İngiltərədə Savthempton Universitetində təhsil almış və hal-hazırda qabaqcıl müəssisələrdən birində aparıcı mütəxəssis kimi fəaliyyət göstərir. Yüksək intellekti, hərtərəfli hazırlığı ilə seçilən qardaşlar Azərbaycan gəncliyi üçün əsl nümunədirlər.

Nərgiz xanım da öz övladları ilə fəxr edir, qürur duyur. Qızı Aydan Baxşəliyeva Bakı Dövlət Universiteti nəzdində olan Türkiyə Dəyanət Vəqfinin təsisçisi olduğu Bakı Türk liseyini qızıl medalla bitirdikdən sonra 2014-cü ildə 682 balla ADA Universitetinin Dövlət və İctimai münasibətlər fakültəsinə qəbul olunmuşdur.

2014-2015-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticə göstərmiş tələbələr arasında prezident təqaüdünə layiq görülmüşdür.

Ailənin digər övladı Cəfər Novruz oğlu Baxşəliyev isə hazırda Bakı Türk liseyinin 11-ci sinfində təhsil alır. Türkiyə Universitetinə qəbul olunub, məktəbi bitirdikdən sonra ali təhsilini qardaş ölkədə davam etdirəcək.

Elnurun övladları balaca olsalar da, babaları haqqında çox şeyləri bilirlər. Yafəs müəllimin gənclik illərində yazdığı şeirləri sevə-sevə oxuyur, babaları haqqında olan xoş xatirələri maraqla dinləyirlər.

İlham Bakıdakı 102 saylı məktəbin rus bölməsinin ikinci sinfində təhsil alır. Əlaçıdır. Birinci sinfi xüsusi tərifnamə ilə bitirən bu istedadlı balaca məktəbli haqqında müəllimləri yüksək fikirdədirlər, onun gələcəyinə böyük ümid bəsləyirlər.

Riad Baxşəliyev ailənin sonbeşiyidir. 5 yaşı olmasına baxmayaraq qeyri-adi istedada malikdir. Hazırlıq şöbəsinə gedən Riadı çoxları babası Yafəs müəllimə bənzədir.

Yafəs müəllimin vəfalı ömür-gün dostu İcabikə xanım nəvələrinin onu yaşatdığını bildirir: "Yafəs təmiz, ləkəsiz bir ad qoyub getdi. Övladlarını, nəvələrini mənə tapşırdı. Fəxr edirəm ki, onların hər biri babalarının etimadını doğrultdular. Dünyada bundan böyük xoşbəxtlik varmı?".

Yafəs müəllim yaxşılıq etməkdən yorulmazdı. Balalarını, nəvələrini, dostlarını, doğmalarını, dərs dediyi yüzlərlə tələbələrini də dünyanın ən xeyirxah, ən yaxşı insanları kimi görmək istəyirdi. Dünyanı yaxşılıq xilas edəcək, deyirdi. Söhrab Tahirin "Yaxşılıq" şeirini getdiyi bütün məclislərdə əzbərdən deyirdi.

Bəli, Yafəs müəllim dünyadan köçsə də, əbədilik səadət olan yaxşılığı bu dünyada əmanət qoyub getdi. İnanırıq ki, o yaxşılıqları nəvələri Anar, Murad, Aydan, Cəfər, İlham, Riad itməyə qoymayacaqlar.

Sağ olsaydı, fevralın 5-də 76 yaşı tamam olacaqdı. Görünür, qismət, tale beləymiş. Ruhun şad olsun, Yafəs müəllim!

**Zülfüqar Şahsevənli**